AZƏRBAYCAN RESPUBLİKASI
"AÇIQ GÖZ"
Məhdud Məsuliyyətli Cəmiyyət
"İCTİMAİ NƏZARƏT TƏŞKİLATI"
VÖEN: №1704094081
E-Mail: nezaret.2025@gmail.com
Tel: +994 51 443-56-68
+ 994 55 343-56-68

REPUBLIC OF AZERBAIJAN
""OPEN EYE""
Limited Liability Company
"PUBLIC OVERSIGHT ORGANIZATION"
VAT number: №1704094081
E-Mail: nezaret.2025@gmail.com
Phone: +994 51 443-56-68
+ 994 55 343-56-68

**Azərbaycan Respublikasının Prezidenti,**
Cənab İlham Heydər oğlu ƏLİYEV-ə

# MÜRACİƏT

**Hörmətli cənab Prezident,**

**"Açıq Göz"** İctimai Nəzarət Təşkilatı Sizin tərəfinizdən imzalanmış 30 aprel 2007-ci il tarixli "Bir pəncərə" prinsipi əsasında dövlət qeydiyyatının sadələşdirilməsi haqqında fərmanınıza əsasən VÖEN 1704094081 nömrəsi ilə dövlət qeydiyyatına alınmışdır.

Təşkilatın əsas məqsədləri Azərbaycan Respublikasında ictimai nəzarətin təşkili, dövlət idarəçiliyində şəffaflığın artırılması, vətəndaşların sosial və hüquqi maarifləndirilməsi, həmçinin Ulu Öndər Heydər Əliyevin siyasi kursunun qorunması və bu ali ideyaların gələcək nəsillərə aşılanması istiqamətində fəaliyyət göstərməkdir.

Təşkilat, Sizin rəhbərliyinizlə ölkəmizdə həyata keçirilən islahatların ictimai dəstəyini təmin etmək, cəmiyyətlə dövlət qurumları arasında qarşılıqlı etimadı möhkəmləndirmək və vətəndaş iştirakçılığını gücləndirmək məqsədilə fəaliyyətini bütün bölgələrdə genişləndirməyi planlaşdırır.

Bu istiqamətdə "Açıq Göz" İctimai Nəzarət Təşkilatı tərəfindən ölkənin bütün rayon və şəhərlərində nümayəndəliklərin yaradılması qərara alınmışdır. Bu məqsədlə yaxın günlərdə müvafiq rayon icra hakimiyyətlərinə rəsmi müraciətlər ediləcək, nümayəndəliklərin təsis olunması və fəaliyyətinin əlaqələndirilməsi barədə məlumat təqdim olunacaqdır.

**Hörmətli cənab Prezident,**

Təşkilatımızın məqsədi dövlət orqanlarının fəaliyyətinə alternativ deyil, əksinə, ictimai nəzarət mexanizmləri vasitəsilə dövlət siyasətinin həyata keçirilməsinə dəstək vermək, ictimai fikrin dövlət quruculuğu proseslərinə cəlb olunmasını təmin etməkdir.

Sizin rəhbərliyinizlə ölkəmizdə formalaşan ədalətli, şəffaf və xalqla dövlətin birliyinə əsaslanan idarəçilik siyasətinə sadiq qalaraq, "Açıq Göz" təşkilatı bu istiqamətdə öz fəaliyyətini davam etdirməyə hazırdır.

Yuxarıda qeyd olunanları nəzərə alaraq,Təşkilatımızın ölkə üzrə strukturlaşması və nümayəndəliklərin yaradılması prosesinə dövlət orqanları səviyyəsində dəstək göstərilməsi barədə müvafiq tapşırığın verilməsini Sizdən xahiş edirik.

Hörmətlə,
Alıyev İlyas Vəli oğlu
"Açıq Göz" İctimai Nəzarət Təşkilatının
Təsisçisi və Sədri
Tarix: [10/11/2025]